# Azərbaycan mədəniyyəti tarixində doğulan günəş –
# Sultan Məcid Qənizadə


S.M.Qənizadə

Azərbaycan maarifçilik cərəyanı XIX əsrin sonu – XX əsrin əvvəllərində özünün ən ilk çağlarını yaşayırdı. Təsadüfi deyil ki, 1875-ci il "Əkinçi" qəzetinin çapı ilə start götürən Milli Azadlıq Hərəkatı 1918-ci ilin 28 mayına, yəni Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu günə qədər davam etdi. Sonra da istiqlal bəyannaməsi kimi şanlı bir tarixlə nəticələndi. Bu, təbii ki, öz-özünə meydana gəlməmişdi – həmin dövr ziyalılarının gərgin əməyinin məhsulu idi. Hansı ki, onlar çox böyük çətinliklərə baxmayaraq, xaricdə təhsil almış və Avropanın demokratik, intellektual dəyərlərini Şərq ölkəsi olan Azərbaycana da gətirmişdilər. XIX əsrdə Azərbaycan maarifçilik cərəyanını inkişaf etdirən şəxslərdən biri də Sultan Məcid Qənizadə olub. Sultan Məcid əfəndi XIX əsrin sonu XX əsrin əvvəlindəki ziyalıların bəzilərindən fərqli, çoxşaxəli fəaliyyəti ilə seçilib – dahi şəxsiyyət, sözün həqiqi mənasında, elm adamı, vətənin dəyərli, ziyalı övladı, tanınmış maarif xadimi, müəllim, yazıçı, tərcüməçi, jurnalist, bir sıra lüğətlər, dərsliklər, bədii əsərlər, felyetonlar müəllifi, Azərbaycan maarifinin ağırlığını çiynində şərəflə daşıyan fədai...

S.M.Qənizadə 1866-cı ilin aprel ayında Şamaxı şəhərində tacir Hacı Murtuzəli kişinin ailəsində dünyaya gəlmişdi. Tədqiqatçıların yazdığına görə, Sultan Məcidin ulu babası Ağa Məsih Şirvani Şamaxının tanınmış şairlərindən imiş. Ədibin bəzi məqalələrində "Məsihzadə" imzası ilə yazması da bu varisliyə işarədir. Atasının tacir, Şamaxının sayılıb-seçilən ziyalısı kimi elmə, maarifə böyük marağı vardı. Bu səbəbdən də oğlunun ilk müəllimi özü idi. Əvvəlcə övladına yazıb-oxumaq öyrədib, sonra da şəhərdəki müxtəlif məktəblərdə oxutdurub. Rus dilini mükəmməl bildiyindən S.M.Qənizadə 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Bu institut 50 ilə yaxın bir müddətdə yaxın vilayətlərin şəhər məktəbləri üçün müəllim kadrları hazırlayırdı. O vaxt müsəlmanların şəhər məktəblərində müəllim işləməsi çar hökuməti tərəfindən qadağan edildiyindən Qənizadə tələbə dostu və gələcəkdə yaxın silahdaşı olacaq Həbib bəy Mahmudbəyovla birlikdə kənd məktəblərinə göndəriliblər. Bu haqsızlıqla razılaşmayan hər iki dost Bakıya gələrək 1887-ci ildə "Rus-Azərbaycan məktəbi" adlı ibtidai təhsil ocağının yaradılmasına nail olublar. Bu maarif işığının şöləsi tezliklə yurdumuzun müxtəlif bölgələrinə yayılıb. Azərbaycan maarifinin yeni mərhələsi sayılan uğurlu fəaliyyətin şöhrəti başqa ölkələrdə də yeni təhsil ocaqlarının yaradılmasına təkan verib. S.M.Qənizadənin hazırladığı bir sıra lüğətlər bu sahədə ilkin addımlardan sayıla bilər. "Lüğəti-rusi və türki" (1902), "Samouçitel tatarskoqo yazıka" və başqa kitablar müəllifin elmi təfəkküründən, dillərə olan münasibətindən, gərgin əməyindən, yaradıcı fəaliyyətindən, öz millətinə göstərdiyi xidmətdən və canyanğısından xəbər verir. Maarifimizin ağırlığını çiynində şərəflə daşıyan Qənizadə bir müddət Qori Müəllimlər Seminariyasında, sovet hakimiyyəti illərində isə





Mirzə Ələkbər Sabirin Sultan Məcid Qənizadəyə məktubundan: "Siz də bilirsiniz ki, Şamaxı mənim kimilər üçün bir zindandır"

respublikanın Xalq Maarif Komissarlığında çalışmış, müxtəlif elmi cəmiyyətlərin, komissiyaların üzvü olmuşdur. Azərbaycan müəllimləri arasında böyük hörmətə və nüfuza malik bu qocaman maarif xadiminə hamı ehtiramla "Mirzə Məcid" deyə müraciət edirmiş.

**O, Azərbaycan teatrının inkişafında da böyük xidmətlər göstərib. Səhnəyə neçə-neçə istedadlı həvəskarın cəlbinə, teatr truppalarının fəaliyyət istiqamətlərinin müəyyənləşməsinə çalışıb. Hüseyn Ərəblinskinin teatra gəlməsində böyük rolu olub – məlumdur ki, böyük aktyor ilk dəfə məhz S.M.Qənizadənin rejissorluğu ilə hazırlanmış "Vəziri xani-Lənkəran" komediyasının tamaşasındakı (1898) Mehtər Kərim rolunu oynamışdır. Araşdırmalar göstərir ki, Sultan Məcid həm rejissorluğu gözəl bacarırmış, həm də dramaturqluğu. Təəssüf ki, onun bu sahədəki fəaliyyəti yetərincə tədqiq edilməyib.**

Qənizadə həm də tərcüməçi idi. 1894-cü ildə Lev Tolstoyun "Əvvəlinci şərabçı" pyesini tərcümə edib, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur ki, bu da Azərbaycan səhnəsi tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olub. O da məlumdur ki, Sultan Məcid Qənizadə öz müasiri Lev Tolstoyla sıx əlaqə qurmuş, mütəmadi məktublaşmış və Yasnaya Polyanada görüşmüşlər.

Sultan Məcid Qənizadə istedadlı yazıçı və dramaturq idi. Deyilənə görə, ilk qələmə aldığı pyes "Qönçə xanım" adlanıb. Təəssüf ki, həmin əsər bu günə qədər tapılmayıb. Rus ədiblərindən etdiyi tərcümələrlə yanaşı, xalq nağılları əsasında uşaqlar üçün mənzum hekayələr də yazıb. Ən sanballı bədii əsəri isə "Məktubati-Şeyda bəy Şirvani" adlanır. Əslində, bu, bioqrafik bir əsərdir. Romanın bütün məzmunu əsərin baş qəhrəmanı Şeyda Məsihzadənin gündəliklərindən ibarətdir. Tədqiqatçılar birmənalı təsdiqləyiblər ki, Şeyda bəy elə Qənizadənin özüdür. Roman "Müəllimlər iftixarı" və "Gəlinlər həmayili" adlı iki hissədən ibarətdir. Sovet dövründə təhlili ziddiyyətli şəkildə aparılmışdır. Müəllifin fanatizmə, geriliyə qarşı yönəldilmiş tənqidi təqdirlənsə də, Allaha inamı qəbul edilməyib. Bu səbəbdən də Qənizadənin fikirləri "ziddiyyətli görüşlər" kimi qiymətləndirilib.

S.M.Qənizadə, eyni zamanda böyük jurnalist idi. Qori Müəllimlər Seminariyasında işlədiyi müddətdə mətbuatda müntəzəm çıxış edib, yazıları ən çox "Dəbistan" jurnalında işıq üzü görüb. Ədəbiyyatşünas Firudin Hüseynovun yazdığına görə, Sultan Məcid Qənizadə Nəriman Nərimanovla yaxından dostluq etmiş və əqidə yoldaşı Həbib bəy Mahmudbəyovla birlikdə maarifpərvər bir mətbuat orqanı açmaq haqqında düşünürmüş. 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının yaranışını alqışlayan və buna çox sevinən ziyalılarımızdan biri məhz S.M.Qənizadə idi. Amma təəssüf ki, tədqiqatçıların heç biri "Molla Nəsrəddin"in yazarları haqqında araşdırmalar apararkən Sultan Məcid Qənizadənin üstündən sükutla keçiblər. Mümkün deyil ki, belə bir jurnalın yaranışına sevinən, Sabirlə dost olan, o dövrün müxtəlif mətbuat orqanlarında çıxış edən bir ədib "Molla Nəsrəddin" jurnalına nəsə yazmasın. Görünür, naməlum qalan imzalardan Sultan Məcidə də məxsus olanlar var. Yəqin ki, yeni tədqiqatçılar tərəfindən bu qaranlıq məsələlərə də bir aydınlıq gətiriləcək.

Müəllimliyə başladığı ilk gündən həyatını və yaradıcılığını millətinin oyanışına, tərəqqisinə, təhsilinə və işıqlı gələcəyə sahib durmasına bağlamışdı. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli yazırdı: "Qənizadə iqtidarlı bir ədib olduğunu bildirir. Əsərlərinin hər birində təzə fikirlər, vüsətli xəyallar, dərin mənalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik". Bir çox həmkarından fərqli olaraq, S.M.Qənizadə yaradıcılığında da, pedaqoji fəaliyyətində də insanları Allahın buyurduğu şəriətlə yaşamağa ça-



"Molla Nəsrəddin"çilər: soldan Əli İsgəndər Cəfərzadə, Cəlil Məmmədquluzadə, Ələddin Əfəndizadə, Sultan Məcid Qənizadə, Ömər Faiq Nemanzadə və Qurbanəli Şərifov

ğırırdı. İnsan mənəviyyatını, əxlaqını önə çəkərək dünyəvi elmləri yorulmadan təbliğ etməklə yanaşı, hər kəsi insaniyyətə, mənəviyyata, milliyyətə, Vətənə xidmətə səsləyərdi. Bütün ibrətamiz öyüdlərində vətəndaş olduğunu, Vətənə bağlılığını ifadə edirdi. O dövr yazıçılarının bir çoxunu maraqlandıran problemlərdən biri də qadın azadlığı məsələsi idi. S.M.Qənizadə müsəlman aləmində əsrlər boyu davam edən qadın geriliyinə son qoymaq üçün "Gəlinlər həmayili"ndə öz fikirlərini oxucuların mühakiməsinə vermişdi. Bütün bunlardan sonra o dövrün tələbi ilə "xalq düşməni" adlandırıldı. Tərcümeyi-halında oxuyuruq: "S.M.Qənizadə 1937-ci ildə, 72 yaşında vəfat etmişdir". Görünür, tədqiqatçılar dövrün ab-havasından çəkinərək ölüm tarixini sadəcə belə yazmağı məsləhət bilmişlər. Amma o, öz əcəli ilə ölməmişdi. 1937-ci ilin repressiyaları öz qara caynaqlarını yaşının ahıl çağında Sultan Məcid Qənizadəyə də tuşladı. Ömrü boyu millətinə, xalqına, onun işıqlı gələcəyinə xidmət göstərən bir şəxsiyyəti həbs edərək "xalq düşməni" kimi güllələdilər.

Ədibin yaradıcılığında körpəlik pedaqogikası, Azərbaycan pedaqoqu və maarifçisi, tərbiyə, cismani tərbiyə, mənəvi tərbiyə, valideynlər və milli tərbiyə əsaslı yer tutur. Belə ki, ümumi pedaqogika başqa elmlərə nisbətən müstəqil bir elm kimi son zamanlar formalaşmasına baxmayaraq, tarixi çox qədimə söykənir. Bütövlükdə, "Pedaqogika" yunan sözü olub ədəbiyyatda "uşaq ötürən", "uşaq himayə edən" və yaxud "yönəldirəm, tərbiyə edirəm" mənasında işlənir. Sultan Məcid Qənizadə isə bu sözü "lələ" adlandırır. O yazır: "Pedaqogika ləfzi yunan dilində "lələ" deməkdir ki, ibarətən tərbiyə elmi zəmnində istemal olunur". Çox maraqlıdır ki, "lələ" sözünə qardaş türk pedaqoji ədəbiyyatında, həmçinin Azərbaycan dastanlarında rast gəlirik. "Lələ" sözünə Azərbaycan aşıq dastanlarında da rast gəlirik, məsələn, "Əsli və Kərəm" dastanında deyilir:

*Ərzurumun gədiyinə varanda,*
*Onda gördüm burum-burum qar gəlir.*
*Lələ dedi: gəl bu yoldan qayıdaq,*
*Dedim dönmək namusuma ar gəlir.*

Beləliklə, böyük maarifçinin məqaləsində "lələ" sözü, fikrimizcə, çox yerində işlədilmişdir və elmi-pedaqoji ədəbiyyatda bir termin kimi istifadəsi də maraq doğururdu. Məlum olduğu kimi, pedaqogikanın bir elm kimi formalaşması çex pedaqoqu Y.A.Komenskinin adı ilə bağlıdır. Azərbaycan elmi-pedaqoji fikri tarixində isə bu məsələ maarifçi-pedaqoqumuz S.M.Qənizadənin (1866–1937) adı ilə bağlıdır. Onun fikrincə, "pedaqogika ən mühüm və ən vəsi (yəni ən geniş, vüsətli) elmlərdən birisidir". Pedaqogika elminə verdiyi tərif də maraqlıdır; yazır ki, pedaqogika elmi insan tərbiyəsinin müxtəlif tərəflərini tədqiq edir. Bununla belə, əslində, pedaqogika insan tərbiyəsinin iki əsas cəhətini öyrənir ki, bunlardan biri cisim, yəni bədən tərbiyəsi, digəri isə ruh tərbiyəsidir. Göründüyü kimi, müəllif tərbiyyənin iki növü – ruhi və cismani, müasir terminlərlə desək, mənəvi və fiziki tərbiyəni nəzərdə tutur. Fiziki tərbiyə ilə yanaşı, mənəvi tərbiyədən də ətraflı bəhsi vəd etsə də, əsərdə yalnız fiziki tərbiyə məsələləri şərh olunmuşdur. Buna baxmayaraq, o, tərbiyənin hər iki növünü bir-birindən təcrid etmir, birini digəri üçün əsas sayırdı. Fikrimizcə, həqiqətən də, insanın tərbiyəsində yuxarıda göstərilən hər iki cəhət əsas olub, tərbiyə aparıcı yer tutur. Müəllif bu iki cəhətdən birinin – fiziki tərbiyənin üzərində dayanır, onun daha geniş və ətraflı şərhinə çalışır. Fikrincə, cismani tərbiyə, yəni bədən

tərbiyəsi insanın sağlamlığına, uşağın daxili və xarici orqanlarının düzgün inkişafına xidmətdədir. Sultan Məcid əfəndinin fikrincə, insanın şüuru, idrakı, fəhmi uzaqgörmə qabiliyyəti, gözüaçıqlığı və s. hisləri onu digər varlıqlardan fərqləndirir və bu cövhərlərin bünövrəsi hələ ana bətnində ikən Allah tərəfindən qoyulur. Müəllifin qənaətincə, insanın mövqeyi uca olduğuna görə tərbiyəsi də daim zəhmət və hünər istər. S.M.Qənizadənin gəldiyi elmi-pedaqoji nəticələrdən biri də budur: "Tərbiyə işində cisim tərbiyəsi ruh tərbiyəsindən müqəddəmdir". Belə ki, əgər bədən salamat olmasa, ruh asayişdə qala bilməz". Ümumiyyətlə, böyük maarifçinin fikirlərində körpənin bədən tərbiyəsinə, xüsusilə də ana bətnində tərbiyəsinə, başqa sözlə, körpəlik pedaqogikasına ayrıca diqqət yetirilmiş və bu məsələ üzrə müxtəlif tərəflər şəhr edilmiş, bu günümüz üçün də faydalı, dəyərli fikirlər söylənilmişdir.

Böyük şəxsiyyət S.M.Qənizadə Azərbaycan ədəbiyyatı tarixində ilk tarixi dramın ("Qönçə xanım"), ilk romanın ("Gəlinlər həmayili"), ilk publisist hekayənin ("Müəllimlər iftixarı"), ilk yumoristik mənzum uşaq hekayəsinin ("Tülkü və Çaqcaqbəy") yaradıcılarındandır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni fikir tarixinin müstəsna zəka və əməl sahiblərindən olub, milli maarifi tanıma, milli azadlıq və dövlətçilik ideyalarının gerçəkləşməsi yolunda misilsiz xidmətlər göstərmişdir. Qənizadənin adı milli mədəniyyət və dövlətçilik tariximizə böyük maarifçi, bənzərsiz pedaqoq, əsl xalq müəllimi, məktəb və ədəbiyyat fədaisi, görkəmli maarif xadimi və təşkilatçısı, dilçi-metodist alim, tanınmış ədib, yazıçı, mühərrir, mütərcim, nəhayət, milli istiqlal mücahidi, ictimai-siyasi və dövlət xadimi kimi daxil olmuşdur. Öncül ziyalı Qənizadənin müdrik fikirlərinə nəzər salaq: "Çobanın sürüyə acığı tutanda kor keçini qabağa salır"; "Müəllimin evi kitabxanadır, dövləti kiçik şagirdlər, sazı və nəğməsi şagirdlərin sədası, qazancı isə millətin məhəbbət və ehtiramıdır"; "Müəllim dediyimiz zat mərifət külbəsinin (dünyasının) dərbanı (qapıçısı), nicat yolunun rəhbəridir"; "Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrət edən ata kimidir"; "Bizlər (millət) üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yansa gərəkdir"; "Cəhalət mülkünə əgər bir məhtab (ay) doğacaq isə, yenə məktəb divarından parlayacaqdır"; "Əgər sultanlıq istərsən, dəri-məktəbdə (məktəb qapısında) xadim ol!"; "Əgər insanın malı gedə təəssüf olmaz, təəssüf olur, əgər abrusu tökülə"...

Azərbaycan milli ideyasının formalaşmasında mühüm rol oynayan mütəfəkkirlərimizdən olan S.M.Qənizadə türklüyə və islama münasibətdə də özünəməxsus mövqedədir. Hələ 1880-ci illərin sonlarından başlayaraq Azərbaycan türklərinin maariflənməsi uğrunda mübarizəyə başlayan Sultan bəy bu dövrdə digər Azərbaycan türk mütəfəkkiri Həbib bəy Mahmudbəyovla birlikdə, 1887-ci ildə Bakıda "Rus-Tatar məktəbi" adlı ilk yeni tipli ibtidai məktəbin əsasını qoymuşdur. Çünki bu dövrdə, əsasən, dini elmləri öyrədən mədrəsələr mövcud idi və orada da dərslər yalnız fars və ərəb dillərində həyata keçirilirdi. Ancaq yeni tipli məktəbdə isə Azərbaycan türkcəsi əsas dil kimi tədris olunur, eyni zamanda burada dünyəvi elmlər (coğrafiya, riyaziyyat, tarix və s.) də öyrədilirdi.

**"Bu məktəbin yaradılması Azərbaycan milli ideyasının inkişafına da müsbət təsir göstərib. Belə ki, həmin məktəbin məzunları arasında Azərbaycan türklərinin ideoloqu Məhəmməd Əmin Rəsulzadə də vardı. Sultan Məcid bəy Azərbaycan türk dilinin inkişafına da böyük diqqət yetirmiş, 20-ci əsrin əvvəllərində onun "Lüğəti-rusi və türki", "İstilahi-Türki" və başqa kitabları nəşr edilmişdir. S.M.Qənizadə ilk dövrlərdə bir maarifçi kimi, daha çox cəmiyyətin savadlanmasına, elm və bilik sahibi olmasına çalışırdı. Onun fikrincə, müəllimin əsl övladları öz uşaqları deyil, məhz şagirdləri olmalıdır. Eyni zamanda müəllimin mal və dövləti dərs və təlimdir, müəllimin kəsb və icrəti isə millətinin rəğbətidir.**

S.M.Qənizadə düşünürdü ki, mədəniyyət əsrində Xacə Hafizin xətm etdiyi qəzəliyyat yolu ilə getmək, zülf və şövqlə mədhiyyələr oxumaq hünər deyildir. Artıq dünyəvi elmlərə meyil etmək, cəmiyyəti maarifləndirəcək əsərlər yazmaq lazımdır. Bu yolda Qənizadə bir sıra əsərlər "Məktubati-Şeyda bəy Şirvani", "Allah xofu" və s. qələmə almışdır. O, həmin əsərlərində də, ilk növbədə, yeni tipli məktəblərdən və həmin məktəblərdə dərs deyən müəllimlərin milli ruhlarından bəhs edirdi. Azərbaycan mütəfəkkiri hesab edirdi ki, dini xurafat və mövhumatdan, cahillik və nadanlıqdan qurtulmağın ilk yolu məktəblərin yaranmasından və həmin məktəbdə millətin övladlarına bilik vermək istəyən müəllimlərin olmasından başlayır. Onun fikrincə, müəllim millətini cəhalətdən qurtarmaq üçün hər şeyi gözə almalıdır: "Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrət edən ata kimidir. Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilərsə, yaxşı müəllim kəctəb millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər".

Hətta Qənizadə müəllimliyi Həccə getmək istəyən müsəlmanın vəzifəsindən də ağır vəzifə hesab etmişdir. Onun fikrincə, xüsusilə dövründə müəllim çox məsuliyyətli bir vəzifə daşıyır: "Müəllimliyə təklif olan şəxs Həcc və zəkatə müstəti olmadıqda "kimləri öyrətdin və nə öyrətdin?" sorulub bazxast (tələb) olacaqdır. İnsafən müəllimlik təklifi ağır təklifdirsə, müəllimlik şəni həm uca şəndir. Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə daha ağırraqdır! Əsrimiz bir əsrdir ki, gündüzlər qiraət, gecələr kitabət müəllimlər üçün din borcudur".

S.M.Qənizadə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan xalqının yetirdiyi böyük maarifçi, söz, fikir və əməl adamı, dilçi, metodist alim, tanınmış ədib və ictimai-siyasi xadim idi. Haqq dünyasına qovuşmasından uzun illər keçsə də əsərlərində, əməllərində və parlaq ideyalarında bu gün də yaşayır. Necə ki Azərbaycanın zəngin məktəb və pedaqoji fikir tarixi, qədim ədəbiyyatı var, deməli, Azərbaycanda müasir məktəb hərəkatının banisi və misilsiz carçısı, böyük maarifçi S.M.Qənizadənin də adı və əməlləri hər zaman yaşayacaqdır. ❖

**Aynurə Əliyeva**